# Ünvanını tapmayan titul

Şair necə də gözəl deyib:
*Nöqtə boyda ölkə - vulkan,*
*Biri tikən, biri yıxan,*
*Bu hissin olmaya,dünya!*

Dünyanın bu hissi müharibədir. Əzəldən belədir dünya: kimsə kimsədən irəli gedərsə, ona badalaq vuran çox olar. Hansı ölkə iqtisadi cəhətdən güclənmək istəsə özünü hegemon sayan dövlətlər hər hansı bir vasitə ilə o dövləti sarsıtmağa çalışarlar. Müharibələrdə o qədər məqsədlər var ki... Ən başlıcası inkişaf etməkdə olan, həm də demokratik yolla inkişafda olan iqtisadiyyatı güclənməkdə olan dövlətlərin azadlıq iddiasına düşməsinə yol verməmək üçün münaqişə yaratmaq və o dövlətləri tənəzzülə uğratmaq... Və bu zaman iqtisadiyyat burulğanında çapalayan yadellilərdən "saman çöpü" umaraq onların fitvası ilə sirk oyuncağına çevrilən "dövlətcik-lər"dən istifadə olunur. Nəhayətdə isə "hegemon" sayılan dövlətlər qazanır və bu hegemonluğun məram və məqsədi bir qədər də şaxələnir, hərbi məhsulları satılır, bir sözlə hegemonluq dairəsi böyüyür. Axı hegemon dövlətlərin elə hegemonluq iddiaları da bu səbəbdən reallaşmışdır tarix boyu...

Müharibə həmişə zəhmətkeş xalqa ziyan vurmuşdur... Hərtərəfli ziyan - onların əməyi, zəhmətinin bəhrəsi məhv olmuş, ən əsası mənəviyyatı zərbə almışdır. Müharibə zamanı iqtisadiyyata dəyən zərər də onların yaşayış tərzinə mənfi təsir etmişdir. Min bir zəhmətlə böyütdükləri nər oğulları şəhidlik zirvəsinə qalxsa da ürəkləri tab gətirməyib əzizləri ilə o dünyada qovuşanlar kim... Yana-yana yaşayanlar kim... Qazi övladlarının şikəst halından "canlı ölü" kimi ömür sürənlər kim... Dövlət onlara nə qədər qayğı göstərsə belə, mənəvi həyatlarına heç kəsin təsir edə bilmədiyi zəhmət adamları acıların canlı qurbanları olmuşdur tarix boyu! Və müharibələrin izlərini tarix belə silə bilməmişdir.

Bəzən insanları bu müharibələr deyil, qarşılaşdıqları haqsızlıqların acısı daha çox ağrıtmışdır. Müharibə müharibədir, bəs müharibə iştirakçılarına bir çox hallarda bəslənilən laqeydlik, "ötür-ötür" üsulları onların insanlıq ləyaqətinə alçaldıcı təsir etmirmi? Axı bu laqeydliyi də insanlar yaradır və laqeydliyi yaşayan insanların ələlxüsus mənəvi dünyasını yıxırlar. Məgər həyatda "çarəsizlik" bu qədərmi güclüdür?! Şəhidlər və qazilər haqqında yazmaq məqsədilə onlardan bəzi məlumatları öyrənmək istədikdə həm də daha çox öyrənirdik... Dili ilə giley-güzar etmək istəməsə də baxışlarında gizlənmiş nisgilləri "görürdük". Bəzən bu baxşıların "yatmış vulkan" olduğu söhbət əsnasında üzə çıxırdı. Ancaq bu vulkanlar illərin gərdişində "zərərsizləşmiş", sanki işartısı ilə sönməyi bir olmuşdur.

II Qarabağ Müharibəsi iştirakçılarının əksəriyyəti I Qarabağ Müharibəsinin övladları və ya yaxınlarıdır. Həmişə söhbətin sonunda bu məlumatı öyrənərdim. Mirzəbəyli kəndindən Tərlan qazi Nurlanın atasıdır, Əmirvan kəndindən Zahir şəhid Fariz Rəhimovun atasıdır... Bu siyahını davam etdirmək olar. Ancaq bu iki valideynin timsalında da əsgər qayğılarından danışmaq olar fikrimcə. Əsgər döyüşdə ölməz, unudulunca ölər! Əsgər düşmən gülləsindən yaralanmaz və ağrımaz, ona qarşı haqsızlıqdan, soyuq münasibətdən yaralanar. Və inanın ki, bu yaralar illər uzunu qaysaq tutsa belə qanamağa hazırdır daima. Çünki sağalmaz yaradır. Ancaq buna rəğmən vətən darda olanda yenə öz ciyərparalarını gülə-gülə, ürəkdirəklə yola salan da onlardır. Çünki o yola salınan oğullar bu ataların vətənpərvərliyi və milli-mənəvi dəyərlərinin zənginliyi əhatəsində böyüyüblər.



Nədir o laqeydlik?.. Əvvəlki müharibədə daha çox könüllülərin erməni işğalçılarına qarşı müharibəyə getməsi faktı danılmazdır. Ancaq o da məlumdur ki, o müharibədə ən əsas vahid komandanlıq olmadığı üçün, hərbi silah-sursat çatışmadığı üçün, əsgərlərə qayğı çox aşağı səviyyədə olduğu üçün, ermənilərlə qohumluq əlaqələrinin olduğu və buna görə də bəzən hərbi sirlərin lazım olmayan səmtlərə "uçduğu", ölkə daxilində hərc-mərcliyin olduğu üçün igid eloğlularımız şücaətlə döyüşməsinə rəğmən torpaqlarımız ermənilər tərəfindən işğal olunmuşdu. Və bu döyüşlərdə düz dörd il döyüşən oğullar var ki, onlar otuz ilə yaxındır hələ də Müharibə veteranı adını almamışlar.

Əfsuslar olsun ki, müharibədə iştirak etmədən "Müharibə veteranı" tituluna sahib olanlar bu otuz il müddətində veteranlara verilən bütün güzəşt və imtiyazlardan istifadə etmiş və edirlər. Veteran adına belə layiq görülməyən əvvəlki müharibə iştirakçılarından nədən öz veteran adının almamasını soruşduqda deyirlər ki, o illərdə sənədlərimiz itə-bata düşmüşdü. Biz bir yerdə olmur, bir yerdə döyüşmürdük ki... Ünvanımız tez-tez dəyişmiş, sonda sənədlərimiz vahid bir arxivdə cəmləşməmişdir. Dörd illik müharibə şəraitində torpaqlarımızın 20%-i düşmən tapdağında qalmışdır. Sonra isə sənəd arxasınca gedən zaman bu insanlar o qədər süründürməçiliklə qarşılaşmışlar ki, yorulmuş və bu gün bu müqəddəslik və ləyaqət, vətənpərvərlik timsalı olan Müharibə veteranı adı yalnız şifahi halda, sözdə qalmışdır. Sənədləri tapılmadığı üçünmü?! Yoxsa hər iştirakçıya müharibə veteranı adı verilmədiyi üçünmü?! Axı onların döyüşçü yoldaşları canlı olduğu, hansı bölgələrdə döyüşdüyü, bəzilərində müharibənin buraxdığı yüngül yaralar-izlər "sənəd" deyilmi?! Otuz illik bir tarixdə nə qədər imtiyazlar, veteranlara edilən qayğılardan kənar olsalar belə, mənəvi baxımdan laqeydlik və bir vətəndaş kimi vətənpərvərliyinə qiymət verilmədiyi üçün bu insanların yaddaşına yazılan, üzünə qəm kölgəsitək çökən laqeydlik, biganəlik, gözlərindəki bu soyuqluğun işartıları unudularmı?! Bütün bunlara rəğmən onların bu gün şəhid, qazi, igid döyüşçü ataları olması görəsən, insanlıq baxımından kiminsə vicdanını sızladır və düşündürürmü? Əgər düşündürürsə, nə etməli?! Axı onlar bir deyil, iki deyil...

Yaşından tez yaşlanan, qəlbindəki arzuları çək-çevir olaraq elə qəlbindəcə gömüldüyü, həyat yollarının bu səmtsiz arzu burulğanında çox çətinliklərlə davam etdiyi insanların söhbətlərindəki hüznlülük hissləri qəlbimi ağrıtsa da onlardakı Vətən, Torpaq eşqi, vətəndaşlıq qüruru qəlbimi dağa döndərdi. Bu bizim tale yazımız deyən bu həqiqi veteranlar müharibənin nə olduğunu gözəl bilir, Vətənin, Torpağın uğrunda ölən varsa, Vətən olduğunu daha düzgün dərk edir və buna görə də bu gün onlar şəhid, qazi və döyüşçü, veteran valideynləridir.

Bəs, biz?? Biz isə onların qazandığı və otuz ildə sənədlərlə ala bilmədiyi bir adı onların ad və soyadlarının əvvəlinə titul kimi qazandıra bilərikmi? Əlbəttə, bu, II Qarabağ Müharibəsində qazanılan qələbə kimi onların qəlblərində "zəfər yürüşü" simvolu yaradar.

**BİBİXANIM.**

***Siqaret insan sağlamlığının düşmənidir***

# Siqaretə yox deyək!

İnsan orqanizminə mənfi təsir göstərən ən zərərli vərdiş heç şübhəsiz siqaret çəkməkdir. Siqaret çəkmək insanın özünün öz başına açdığı bəlalardan biridir. İnsanın həm sağlamlığına, həm də maddi durumuna zərər vurur. Siqaretin nə qədər sağlamlığa ziyanlı olduğunu bilməsək onu tərgitmək bir o qədər çətin olacaqdır.

Siqaret tütün bitkisinin qurudulmuş yarpaqlarından hazırlanır. Tütün əkilən sahələrdə tütün bitkisinin yaşıl yarpaqlarını heç bir heyvan yemir. Heyvanlar da həmin bitkinin olduqca zəhərli olduğunu hiss edirlər.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən hər il dünyada 5 milyon insan tütün çəkmədən həyatını itirir. Bu təşkilatın apardığı tədqiqatlara əsasən siqaret tüstüsündə 4000-dək kimyəvi maddənin olduğu müəyyənləşdirilib ki, onlardan ən azı 250-si zərərli maddələr, 50-si isə kanserogen (xərçəng yaradan) maddələrdir. Tütünün tərkibində nikotin, qatran, zəhərli qazlar (dəm qazı, hidrogen siayanit, azot oksidi və s.) radiaktiv maddələr (polonium, bismut və s.) vardır.

Tütünün tərkibində olan 100-120 milliqram nikotin hər hansı bir şəxsin damarına yeridilsə onun ölümünə səbəb ola bilər. Bu miqdarda nikotin cəmi iki qutu siqaretdə vardır. Bu miqdarda siqaret çəkənlərin birdənbirə zəhərlənib ölməməsinin səbəbi onların siqareti yandıraraq çəkmələridir. Siqaret yandırılarkən nikotin havaya yayılır və yalnız müəyyən bir hissəsi orqanizmə düşür.

Aparılan tədqiqatlar göstərmişdir ki, psixi pozğunluqları olan adamlar sağlam adamlara nisbətən 4 dəfə cox siqaret çəkirlər.

Tütün çəkmək iştahanın pozulmasına, həzm prosesinin çətinləşməsinə, dişlərin saralmasına, mədə yarası, qırtlaq, ağciyər, dodaq, dil və qida borusu xərçənginin yaranmasına səbəb olur. Öskürmə, xroniki bronxit və ağciyərlərin emfizeması yaranır.

Tütün çəkmə damar divarlarının elastikliyini pozmaqla, ətrafların damarlarında qanın paylanmasını maksimum azaldaraq endoartritə və qanqirenaya səbəb olur. Bu isə son nəticədə əl və ayaqların amputasiyasına (kəsilməsinə), şikəstliyə gətirib çıxara bilər. Rusiya Federasiyasında ildə 20 min nəfər siqaret düşkününün ayaqları amputasiya olunur.

Beyini qidalandıran damarlarda da elastikliyin azalması iflic törədə bilir. Ürək xəstəliklərinin, xüsusən ölkəmizdə və bütün dünyada ölümə ən çox səbəb olan xəstəliklərdən biri olan miokard infarktının əmələ gəlməsinə zəmin yaradır.

Tütünün böyük bəlalarından biri də onun passiv şəkildə yayılmasıdır. Tütünçəkmə ətrafdakı insanların sağlamlığı üçün çox təhlükəlidir. Belə ki, siqaret çəkən şəxsin yanında durmaq və ya onunla təmasda olmaq nəticəsində tütünün zəhərli maddələri insan orqanizminə daxil olur ki, bu da passiv tütünçəkmə adlanır. Aparılan təhlillər göstərmişdir ki, tütünçəkmənin təsirinə məruz qalan tütün çəkməyən insanlarda ağciyər xərçənginin yaranma riskinin yüksəlməsi 30-35 faiz, ürək xəstəliklərinin yaranma riskinin yüksəlməsi isə 25 faiz təşkil edir.

Tütün çəkənlər xroniki ürək-damar, ağciyər və digər xroniki xəstəliklər keçirən şəxslər kimi COVİD-19 infeksiyasına yoluxmada risk qrupuna daxildir. Tütün çəkənlər bu infeksiyanı daha ağır keçirir, onlar arasında ölüm faizi yüksək olur.

Tütünün fəsadlarının nə demək olduğunu bilməyən uşaqlar onun tüstüsünü qəbul edirlər. Bu onların hələ tam formalaşmayan orqanizminə dəhşətli dərəcədə mənfi təsir göstərir, gələcəkdə bir çox xəstəliklərin yaranmasını sürətləndirir. Əgər hər hansı valideyn tütün çəkirsə, öz övladı ilə təmasda olarkən nəfəs alanda belə uşağa mənfi təsir göstərir.

Təhqiqatlar göstərir ki, tütündən aktiv şəkildə istifadə edən uşaqlar və yeniyetmələrdə isə vəziyyət daha acınacaqlıdır. Onlarda sonsuzluq, kütbeyinlik, əsəb xəstəliklərinin yaranması riski çox yüksək olur.

Siqaret çəkənlər unutmamalıdır ki, yalnız özünüzü deyil, ailənizi, birlikdə çalışdığınız iş yoldaşlarınızı zəhərləyirsiniz. Odur ki, siqaretə yox deyərək siqaret çəkməni dayandırmaq həm siqaret çəkənlərin, həm də ətərfdakıların sağlamlığının mühafizəsi üçün mühüm qərardır.

**Atif MƏMMƏDOV,**
**Qəbələ rayon GEM-nin sanitar şöbə müdiri.**

# Rayonda yaş baramanın tədarükünə başlanılıb



Qəbələ rayonunda bu ilki mövsüm ərzində yaş barama yetişdirilməsi üçün 88 kümçü ilə müqavilə bağlanaraq, onlara 300 qutu və ya 5.7 kiloqram ipəkqurdu paylanılıb. Artıq bir neçə gündür ki, istehsalçılardan barama qəbuluna başlanılıb. Qəbələli kümçülər ilk günlər qəbul məntəqəsinə 1,162 ton yaş barama təhvil veriblər. Bu il yaş barama təhvilinin 12 tona çatdırılması planlaşdırılır.

Hal-hazırda barama tədarükü davam edir.

# Xristian icmasının yaşaması

Antiislam, anti Azərbaycan mövqeyinə görə seçilən ölkələrdən biri məlum olduğu kimi Fransadır. Amma bu ölkədə də həqiqəti deməkdə çəkinməyən böyük tarixi şəxsiyyətlər yaşamışlar. Görkəmli tarixçi İqor Moveko əsasən qədim müsəlman ölkələrində bu günlərimiz üçün möcüzə sayıla biləcək tarixi abidələr və başqa məlumatlara özünün qələmə aldığı möcüzə əsərində yer ayırmışdır. Bunlardan biri Fransız tarixçisi Antuan dö Sent Ekzüperi Türkiyənin Qorem vadisində gördüyü möcüzəni dilə gətirir. 1923-cü ildə Belçika missioneri təsadüfən Türkiyənin mərkəzində son günlərini yaşayan Xristian icmasına rast gələndə sarsıldı.

Onu heyrətləndirən əfsanəvi kilsələr deyildi. Müsəlman dünyasının mərkəzində xristian icmasının uzun müddət yaşaması idi. Min ildən çox heç bir qəddar müsəlman Şahı İsa tərəfdarları arasında qırğın salmamışdı.

**Mirzəbala YEDİYAROV,**
**Bılıx kəndi.**